# "Yaşıl taksonomiya"nın hazırlanması üzrə Dünya Bankının dəstək imkanları müzakirə olunub






**Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımov Dünya Bankının (DB) Cənubi Qafqaz üzrə regional direktoru Roland Praysın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

AMB-dən AZƏRTAC-a bildirilib ki, görüş zamanı DB-nin 2025-2029-cu illəri əhatə edəcək Azərbaycan üzrə yeni Ölkə Tərəfdaşlıq Çərçivə sənədinin mühüm istiqamətləri, davam edən investisiya layihələrinin cari statusu, eləcə də Dünya Bankı tərəfindən COP29 çərçivəsində göstərilə biləcək dəstəklə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə həmçinin qurumlar arasında mövcud əlaqələrin daha da genişləndirilməsi perspektivləri və "yaşıl taksonomiya"nın hazırlanması üzrə DB-nin dəstək imkanları müzakirə olunub.

Azərbaycan.- 2024.- 18 sentyabr (№203).- S.8.